BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# XV ƏSRİN II YARISI – XVI ƏSRDƏ AZƏRBAYCANIN BEYNƏLXALQ TİCARƏT ƏLAQƏLƏRİ TÜRK TARİXŞÜNASLIĞINDA

**A.S.CAVADOVA**
*Bakı Dövlət Universiteti*

Ağqoyunlu və Səfəvi dövlətlərinin Osmanlı imperiyası, o cümlədən Qərbi Avropa ölkələri ilə qarşılıqlı ticarət əlaqələri, əslində Şərqlə Qərb sivilizasiyaları arasında ən qədim zamanlardan başlamış qarşılıqlı iqtisadi əlaqələrin davamı və konkret mərhələsi idi. Ağqoyunlu və Səfəvi dövlətlərinin Osmanlı imperiyası və Qərb dövlətləri ilə ticarət əlaqələrinin hərtərəfli və dərindən araşdırılmasının aktuallığı Azərbaycan xalqının onunla qonşu olan xalqların, həmçinin bir çox Şərq xalqlarının feodalizm dövrü tarixinin birbaşa bu dövlətlərlə bağlı olması ilə izah edilir.

Türkiyənin və Avropanın müxtəlif dövlət arxivlərində toplanmış mənbələrdən, nəşr olunmuş tədqiqat əsərlərindən Azərbaycanın bəhs etdiyimiz dövr tarixi ilə birbaşa bağlı olan fakt və materiallarla bəhrələnmiş türk tarixçilərinin əsərlərində Ağqoyunlu və Səfəvi dövlətlərinin Osmanlı imperiyası, həmçinin Qərb dövlətləri ilə ticarət əlaqələri haqda müəyyən materiallara rast gəlirik.

Ümumiyyətlə, hər hansı bir dövlətin istər siyasi, istərsə də iqtisadi tarixini bütövlükdə, tam, hərtərəfli şəkildə tədqiq etmək üçün həmin dövlətin beynəlxalq ticarət əlaqələrinin araşdırılması mühüm şərtdir. Odur ki, Ağqoyunlu və Səfəvi dövlətləri tarixinin, o cümlədən bu dövlətlərin Osmanlı imperiyası və Avropa ilə ticarət əlaqələrinin öyrənilməsi ümumdünya tarixinin bir çox məsələlərinin daha tam aydınlaşdırılması, elmi baxımdan tamamlanması üçün də böyük əhəmiyyətə malikdir.

Mərkəzi Asiya, Çin, Hindistan və İran körfəzini Qara və Aralıq dənizi hövzələri ilə, Yaxın və Orta Şərq dövlətlərini Dərbənd keçidi və Volqa Xəzər su yolu vasitəsilə Rusiya ilə əlaqələndirən beynəlxalq ticarət yollarının adları çəkilən dövlətlərin ərazisindən keçməsi onların xarici iqtisadi əlaqələrinə müsbət təsir göstərirdi. Azərbaycanın, bütövlükdə Cənubi Qafqaz və İranın məşhur sənətkarlıq və ticarət mərkəzlərinin xammal ehtiyatının bu dövlətlərin əlində cəmlənməsi onların Osmanlı imperiyası və Qərb ilə geniş ticarət əlaqəsi saxlamasına əlverişli şərait yaradırdı.

Azərbaycan ipəyi, xüsusən xam ipək Ağqoyunlu və Səfəvi dövlətlərinin Osmanlı imperiyası və Avropa ilə qarşılıqlı iqtisadi əlaqələrində mühüm rol oynayırdı.

Müasir türk tədqiqatçılarının əsərlərində bu problemin müxtəlif tərəfləri müəyyən səviyyədə araşdırılmışdır. Bəhs etdiyimiz dövrdə Osmanlı imperiyası Qafqaz bölgəsindəki ucuz xammal mənbəyi və sərfəli satış bazarlarını ələ keçirmək, bu ərazilərdə möhkəmlənmək, beynəlxalq

tranzit ticarət yolları üzərində tək hakimiyyətini yaratmaq üçün Şərq və Qərb dövlətləri arasında əsrlərdən bəri davam edən ənənəvi ticarət əlaqələri yolunda güclü bir maneəyə çevrilmişdir.

Böyük İpək Yolu üzərindəki əsas ticarət mərkəzlərinin, o cümlədən Qara və Aralıq dənizi bölgələrinin müasir dövrdə iqtisadi və ticarət əhəmiyyətinin artması ilə əlaqədar olaraq, bu ərazilərin XV əsrin II yarısı – XVI əsrdə dövlətlərarası ticarətdə rolunun öyrənilməsi maraqlı və vacib olan problemlərdəndir. Müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin qeyd etdiyi kimi, «Böyük İpək Yolu keçmişdən başlasa da, gələcəyə doğru gedən yoldur» (1, s. 46).

Bəhs edilən dövrdə Azərbaycan dövlətlərinin yeritdiyi daxili, xarici siyasət, iqtisadi inkişaf və ticarət tarixinin ayrı-ayrı məsələlərinin araşdırılmasında qiymətli mənbə kimi istifadə olunan Fəzlullah ibn Ruzbihan Xunəci, Mirxond, Əbu Bəkir Tihrani-İsfahani, Xondəmir, Yəhya Qəzvini, Həsən bəy Rumlu, Şərəfxan Bidlisi, Qazi Əhməd Qumi, İsgəndər bəy Münşi, Mahmud Nətənzi, "Təzkireyi-Şah Təhmasib» və digər mənbələrdə tədqiq edilən problemlə bağlı məlumatlar əksini tapmamışdır.

Lakin tədqiqatçılarımızın qeyd etdiyi kimi, bizə məlum olan farsdilli mənbələrdə ancaq Həsən bəy Rumlu, İsgəndər bəy Münşi və başqa müəlliflərin 1551-ci və 1574-cü illərdə Portuqaliyanın Səfəvi sarayına göndərdiyi iki elçi heyəti haqqında çox qısa məlumatlar var və bu faktlara tədqiqatçılarımız tərəfindən diqqət yetirilmişdir.

Ağqoyunlu və Səfəvi dövlətlərinin Osmanlı imperiyası ilə ticarət əlaqələrinə dair fakt və materiallar türk tədqiqatçıları tərəfindən tədqiqata cəlb edilmiş Məhkəmə, Sicil, Tərəkə dəftərlərində, sultan Qanunnamələrində və s. toplanmışdır. İstanbul, Ankara, Bursa, Konya və digər mərkəzlərdəki kitabxana və dövlət arxivlərində saxlanılan arxiv və əlyazma kolleksiyasında toplanmış bu materiallar, təkcə Türkiyənin deyil, eyni zamanda Osmanlı imperiyasının siyasi, diplomatik və ticarət münasibətlərinə malik olduğu və işğal etdiyi bütün dövlətlərin uyğun dövr tarixi problemlərinin araşdırılması üçün qiymətli mənbə hesab edilir.

İstanbul Muzeyi Arxivində saxlanılan zəngin arxiv sənədləri kolleksiyasında mühüm sənədlərin toplusu olan «Mühümmə dəftərləri», Osmanlı sultanlarının fərman və göstərişlərinin toplandığı Dövlət aktlarındakı zəngin fakt və məlumatlar tədqiq etdiyimiz problemin araşdırılması üçün əhəmiyyətli mənbədir. Bu mənbələr türk tədqiqatçıları tərəfindən müəyyən səviyyədə araşdırılaraq tədqiqata cəlb edilmişdir.

Robert Anhegger və İnalcıq Xəlil tərəfindən nəşr edilmiş sultan II Məhməd və sultan II Bəyazid dövrlərinə dair «Qanunlar toplusu» xüsusən əhəmiyyətlidir. Qanunlar toplusunda nəşr edilmiş sənədlərdə, gömrük fərmanları, yasaqnamələrdə Osmanlı dövlətinin müxtəlif ticarət mərkəzlərində Azərbaycan, eyni zamanda, digər Şərq dövlətlərindən gəlmiş tacirlərin Bursa, İstanbul, Tokat, Trabzon, Sinop, Samsun və başqa ticarət mərkəzlərində Avropa tacirləri ilə ticarət etməsi, alğı-satqı prosesinin gedişi, tacirlərdən gömrük alınması qaydası, gömrük və başqa rüsumların miqdarı və s. kimi mühüm məsələlər haqda müəyyən məlumatlar vardır.

Osmanlı imperiyasının gömrük siyasəti, xüsusən Sultan I Səlimin «Qanunlar külliyyatı» bir mənbə kimi dövrün gömrük siyasəti, vergi rüsumu və s. haqda əhəmiyyətli məlumatları əks etdirir. Bu «Qanunlar külliyyatı» Azərbaycan və digər Şərq məmləkətlərinin Qərb dövlətləri ilə ipək ticarətinə Osmanlı sultanları tərəfindən həyata keçirilən ağır iqti-

sadi siyasətin güclü zərbə vurduğunu əks etdirən qiymətli mənbədir (2).

Müasir türk tədqiqatçıları Ömər Lütfi Barkan, Əkrəm Haqqı Ayverdi tərəfindən hazırlanaraq 1970-ci ildə nəşr edilmiş Istanbul Vakifleri tahrir Defteri (1546), eyni zamanda 1985-ci ildə İ.H.Uzunçarşılı, Y.K.Baybura, Ü.Altındaq tərəfindən nəşr edilmiş "Topkapı sarayi muzesi Osmanlı saray arhivi katalogu. Fermanlar" kimi toplular da müəyyən əhəmiyyətə malikdir (3).

Bəhs etdiymiz dövrdə Osmanlı imperiyasının yeritdiyi xarici siyasət tarixinin ayrı-ayrı problemlərinin araşdırılması sahəsində türk tədqiqatçıları Adnan Erzi və Necati Luqal tərəfindən hazırlanaraq nəşr olunmuş Sultan II Məhməd dövrünə dair məktublar toplusunun, eyni zamanda Rəşat Əkrəmin nəşr etdirdiyi sülh müqavilələri və kapitulyasiyonlar külliyyatının xüsusi əhəmiyyəti vardır (4).

Ağqoyunlu və Səfəvi dövlətlərinin Osmanlı imperiyası və Qərbi Avropa ilə ticarət əlaqələri problemi müasir türk tarixşünaslığında araşdırılarkən Osmanlı imperiyasının xarici siyasət tarixi, Avropa dövlətləri ilə ticarət əlaqələri, XV əsrin II yarısı – XVI əsrlərdə Şərqi Avropanın beynəlxalq münasibətləri, Osmanlı imperiyasının xarici siyasətinin əsas istiqamətləri, Qara və Aralıq dənizi ətrafı bölgələrin əsas ticarət mərkəzlərinin Şərq və Qərb dövlətləri arasındakı ticarət əlaqələrində rolu və s. kimi problemlər əsas tədqiqat obyekti seçilmişdir.

Türkiyənin Dövlət Arxivlərində, İstanbul, Ankara, Bursa, Konya və digər mərkəzlərdəki kitabxanalarda əhəmiyyətli miqdarda arxiv sənədləri və bəhs etdiyimiz dövrlə bağlı materiallar toplanmışdır. Bu materiallar vaxtilə Osmanlı imperiyası tərəfindən işğal edilmiş bölgələrin orta əsrlər dövrü tarixinin müxtəlif problemlərinin araşdırılması sahəsində qiymətli mənbədir. Bu sənədlər əsasən İstanbulda yerləşən Dövlət arxivi, Baş Vekalet arxivi, Ankaradakı Baş Vəkalət arxivi, Tapu ve Kadastro umum Müdürlüyü, İstanbuldakı Topqapı Saray muzeyinin arxivi və digər arxivlərdə saxlanılır.

XX əsrin I rübündə türk tarixçiləri Məhməd Arif, Əhməd Rəfik, Mükrimin, X.Yınanc türk arxiv sənədlərinin tərtibatı və nəşr edilməsi işinin əsasını qoydular.

1942-ci ildə Türk Tarix Cəmiyyətinin (1931-ci ildə təsis edilmişdir) illik iclasında Arxiv Komissiyasının (Arhiv Heyeti) yaradılması haqqında qərar qəbul edildi. İ.H. Uzunçarşılının sədr təyin edildiyi bu komissiyanın əsas məqsədi arxiv sənədlərinin öyrənilməsi, sistemləşdirilməsi və nəşr edilməsindən ibarət idi. Məhz bu dövrdən başlayaraq, türk tədqiqatçıları İ.H.Uzunçarşılı, Ö.L.Barkan, M.Ə.Ünal, X.İnalcıq, Öz Təhsin, T.Gökbilgin və başqaları fəal surətdə bu işə cəlb edildilər. Xüsusi topludan başqa, ayrı-ayrı sənədlər dövri elmi nəşriyyatlarda – Türk Tarix Cəmiyyətinin "Belleten" jurnalında, Baş Vəqf idarəsinin "Vekfler dergisi" jurnalında, İstanbul Universitetinin ədəbiyyat fakültəsinin "Tarih dergisi" tarix jurnalında və s. nəşr edilməyə başladı. Beləliklə, İ.Uzunçarşılı, O.Barkan, X.İnalcıq, T.Gökbilgin və s. tərəfindən ayrı-ayrı qiymətli sənədlər nəşr edilmiş oldu.

Çox qiymətli olan bu sənəd və materiallarda XV əsrin II yarısı – XVI əsrdə Ağqoyunlu və Səfəvi dövlətlərinin Osmanlı imperiyası və Avropa ilə ticarət əlaqələri haqda maraqlı faktlara rast gəlinir.

Lakin türk tədqiqatçılarının əsərlərində Osmanlı imperiyasının yeritdiyi xarici siyasətə münasibət, bu siyasətin işğalçılıq xarakterini pər-

dələmək, Osmanlı sultanlarının şəxsiyyətini müdafiə etmək, qonşu dövlətləri Osmanlı imperiyasına qarşı təcavüzkarlıq siyasətində təqsirləndirmək və s. baxımından müəyyən mənfiliklərin olmasına baxmayaraq, bu əsərlər Osmanlı-Azərbaycan, Osmanlı – Avropa ticarət əlaqələrində Azərbaycan xam ipəyinin mühüm rol oynadığını sübut edən müxtəlif faktlarla zəngin idi.

X.İnalcığın, Ö.L.Barkanın, F.Dalsarın, Ş.Turanın, T.Gökbilginin, S.Tanselin, M.Ə.Ünalın, M.Dəlilbaşının, İ.Uzunçarşılı, H.Sahillioğlunun, N.Göyüncün, Y.Halaçaoğlunun, B.B.Sitqinin, T.Baykaranın, Ç.Orhonlunun, T.Cemalın, İ.Miroğlunun, Y.Öztunanın, İ.Danişməndin, A.N.Kuratın, K.Beydillinin, S.Özbaranın, H.Gurselin, A.Y.Ocakın və digərlərinin tədqiqat işlərində bəhs etdiyimiz problemlə bilavasitə bağlı olan məsələlər şərhini tapmışdır.Osmanlı imperiyası tarixinin orta əsr dövrünün müxtəlif problemlərini araşdıran X.İnalcıq əsərlərində Ağqoyunlu – Osmanlı ticarət əlaqələrində əsas ticarət mərkəzlərindən olan Bursanın dövlətlərarası ticarətdə mühüm rolundan, XV əsrin II yarısı – XVI əsrlərdə Osmanlı dövlətinin iqtisadi inkişaf problemlərindən, yeritdiyi işğalçılıq siyasəti nəticəsində işğal olunmuş ərazilərin iqtisadi vəziyyəti, ticarət həyatı və s. kimi problemlərdən bəhs edir (5).

İstanbulun Baş Vəkalət, Topqapı Saray arxivlərində, Bursa muzeyində toplanmış Tərəkə, Sicil dəftərlərindəki zəngin məlumatlara istinad edərək X.İnalcıq qeyd edir ki, Bursa Sicil dəftərlərindəki vəsiqələrin bir çoxu Azərbaycan tacirlərinin Bursada tam hüquqla iş apardıqlarını və buraya müntəzəm gələn tacirlər arasında təbrizli, gilanlı, şirvanlıların olduğunu göstərən faktlar diqqəti cəlb edir (6, s. 52).

Azərbaycanın Osmanlı imperiyası ilə ticarət əlaqələri mühüm ticarət mərkəzi olan Təbrizdən keçən iki karvan yolu vasitəsilə mümkün idi. Bu, Təbrizi Bursa ilə birləşdirən Təbriz–Diyarbəkir–Mardin–Maraş–Qeysəriyyə–Ankara–Əskişəhər–Bursa və ikinci yol Təbriz–Ərzurum–Ərzincan–Tokat–Amasya–Ankara–Bursa karvan yolları idi (6, s. 51).

Müxtəlif Dövlət arxivlərindən əldə etdiyi mənbələrə əsaslanaraq X.İnalcıq XV əsrin II yarısında Bursa bazarlarına daxil olan Şərq və Qərb dövlətlərinə məxsus malların alğı-satqı prosesini izləmiş və gətirilən malların satılması qaydasını açıqlamışdır (6, s. 58).

872-873 h.q. (1467–1468-ci il) tarixli "tərəkə dəftər"lərindəki məlumata əsasən bu illərdə Bursada olmuş şamaxılı tacir Hacı Əbd ər Rəhmanın 227347 axça dəyərində və 4400 lidrə ölçüsündə ipəyi vardı. Başqa bir iranlı tacir Əcəm Şuca əd Dinin özündən sonra 15833 axça dəyərində ipəyi qalmışdır (7, s. 52-53).

Türk tədqiqatçısı X.Sahillioğlunun məqaləsi XV əsrin sonlarında Bursada olmuş Şərq, o cümlədən Azərbaycan tacirlərinin fəaliyyətinə yönəldilmişdir. İlkin mənbə kimi Bursa Sicil, Məhkəmə sənədlərindəki məlumatlara istinad edərək o, qeyd edir ki, alğı-satqı zamanı ortaya çıxan ziddiyyətli problemləri həll etmək, borc müqavilələrini təsdiq etmək və s. üçün tacirlər məhkəmələrə müraciət edirdilər. Məhkəmə dəftərlərində davalı-davaçı, borclu və ya alacağı olan Şərq tacirlərinin adı qeyd edilirdi. Bu məqalədə 1479-cu ildə Təbrizdən gəlmiş Hacı Cəlaləddin bin Hacı Ahi Karacanın və Hacı Can bin Hacı Səfərşah Əttəbrizinin, 1469-cu ildə isfahanlı Şəmsəddin Əhməd bin Şucanın, Əli şah bin Məhəmməd bin Şəmsəddin Şirazinin və bir sıra digər tacirlərin adına rast gəlinir və bu tacirlərin ticarət prosesində meydana çıxan ziddiyyətli məsələlərin

həlli üçün məhkəmələrə müraciət etməsi, narazılıqların aradan qaldırılması haqda olan məhkəmə sənədlərindən bəhs edilir (8, s. 77-78).

Azərbaycanın Qara dənizə əsas çıxış nöqtəsi olan Trabzon ticarət mərkəzinin dövlətlərarası ticarətdəki rolu problemi türk tədqiqatçıları Ö.Şənin, Ş.Turanın, M.Ə.Ünalın, T.Gökbilginin və s. əsərlərində müxtəlif aspektlərdən tədqiq edilmişdir (9). 1428-ci ildən 1460-ci ilin dekabrınadək Trabzonda ticarət etmiş tacir Q.Kvirini kitab halında tərtib etdiyi məktublarında Trabzon ticarətindən külli miqdarda gəlir əldə edildiyi və Şərq dövlətlərindən daxil olan xammalın növləri haqda məlumat verir.

Türk tədqiqatçıları N.Bərkəsin, S.Tanselin, K.Karpatın, Y.Yügelin, N.Göyüncün, F.Kırzıoğlunun və digərlərinin əsərlərində XV əsrin II yarısında Osmanlı imperiyasının Şərq və Qərb istiqamətində yeritdiyi xarici siyasət planları, həmin dövrdə imperiyanın iqtisadi vəziyyəti, daxili və xarici ticarəti, Azərbaycan xam ipəyinin Osmanlı dövlətinin ticarət mərkəzlərində alğı-satqı əmtəəsi, toxuculuq sənayesi üçün mühüm xammal olması və s. problemlərə toxunulmuşdur (10).

Əsas diqqətin Osmanlı imperiyasının daxili və xarici siyasət problemlərinin tədqiqinə yönəldilməsinə baxmayaraq, bu əsərlərdə dövlətin daxili və xarici ticarət həyatının, həmçinin bəhs etdiyimiz dövrdə iqtisadi vəziyyətin araşdırılması prosesində Azərbaycanla olan ipək ticarəti diqqət mərkəzində duran problemlərdəndir.

Türk tədqiqatçısı T.Atanın tədqiqat işi bilavasitə Osmanlı imperatorluğu gömrük qurumlarının açıqlanması və osmanlılardan əvvəlki dövrdə qüvvədə olmuş türk gömrükləri haqda ümumi təsəvvür yaradır (11).

Əsərdə araşdırılan problemlərdən biri də Şərq ticarəti məsələsi və bu ticarətdə Azərbaycandan keçərək Şərqlə Qərb dövlətlərini bir-birilə əlaqələndirən karvan yollarının fəaliyyəti problemidir.

XVI əsr ticarətinin xüsusiyyətlərindən biri də bu ticarətin okeana doğru istiqamətlənməsi idi. Bunun nəticəsində çay və dəniz ticarəti sıxışdırılmış oldu (12, s. 375).

Müəyyən məlumatlar XVI əsrin əvvəllərində Səfəvi dövləti ilə Venesiya arasında ticarət əlaqələrinin olduğunu göstərir. Məsələn, Venesiya diplomatı Alviks Filareto 17 mart 1521-ci ildə Hələbdən öz ölkəsinə göndərdiyi raportda yazırdı ki, buraya (yəni - Hələbə) Əcəmdən karvan gəldi, bu karvanla Xoca Katef (Coza Catef) adlı bir tacir də gəlmişdi. O, Kiprdə qaldı və sonra gəmi ilə Venesiyaya yola düşdü (13, s. 151).

XVI əsrin II yarısında Osmanlı imperiyasının yeritdiyi xarici siyasətin əsas istiqamətlərindən biri də Rusiyanın cənub ərazilərini işğal etmək, bu bölgədə möhkəmlənməklə Xəzər dənizinə çıxmaq və donanmanın qüvvəsi ilə xam ipəyin əsas mərkəzi sayılan Azərbaycan ərazilərini işğal etməkdən ibarət idi. Bu problem türk tədqiqatçısı A.N.Kuratın, M.Budaqın, M.Üreklinin, M.Sarayın, X.İnalcığın əsərlərində şərhini tapmışdır.

A.N.Kurat türk mənbələrindəki məlumatlara istinadən qeyd edir ki, Səfəvi dövlətinə qarşı aparılan müharibənin Həştərxanı ələ keçirməklə daha asan olacağı, Şirvan, Qarabağ, Azərbaycana dəniz yolu ilə hücum edilərək buraların ələ keçirilə biləcəyi mümkün olacaqdı. Müəllif göstərir ki, bu fikir Osmanlı dövlətinin daxili və xarici siyasət məsələlərini yaxından bilən "Künhul Ahbari" xronikasının müəllifi olan Əlinin, eyni zamanda 1591-1658-ci illərdə yaşamış Əbdüləziz Qaraçələbizadənin "Revzat ul Ebrarinda" əsərində, XVII əsrdə yaşamış Əhməd bin Lüt-

füllah Münəccimbaşının "Sahayif ul Ahbarinda" əsərində də əksini tapmışdır (14, s. 26).

Osmanlı dövlətinin ictimai-iqtisadi tarixi, Avropa və Asiya istiqamətində yeritdiyi təcavüzkar, işğalçı siyasət, eyni zamanda xarici siyasətdə iqtisadi amilin rolu, Osmanlı dövlətinin Ağqoyunlu və Səfəvi dövlətləri ilə apardığı müharibələr və bu kimi digər problemlər türk tədqiqatçılarının, xüsusən S.Tanselin, İ.H.Uzunçarşılının, İ.H.Danişməndin, Y.Öztunanın və digərlərinin əsərlərində geniş şərh olunir, bu əsərlərdə bəhs etdiyimiz problemlə bağlı maraqlı faktlar diqqəti cəlb edir.

Şah I Abbas tərəfindən həyata keçirilən iqtisadi tədbirlər nəticəsində Osmanlı imperatorluğu üçün İran ipək ticarətinin itirilmiş olması, İranın cənubunda Bəndər Abbas adlı yeni limanın fəaliyyəti və bu kimi problemlər türk tədqiqatçısı Kamal Karpat tərəfindən araşdırılmışdır (15).

Müasir dövrdə Böyük İpək Yolunun yenidən bərpası ilə əlaqədar olaraq Tarixi İpək Yolu üzərində yerləşmiş mühüm ticarət əhəmiyyətli mərkəzlərin Şərq və Qərb dövlətləri arasındakı beynəlxalq ticarət əlaqələrində rolu haqda türk tədqiqatçılarının əsərlərində maraqlı məlumatlar vardır və bu məlumatlar Azərbaycanın XV əsrin II yarısı – XVI əsr tarixinin araşdırılması baxımından əhəmiyyətlidir.

**QEYDLƏR:**


1. Böyük İpək Yolu və Azərbaycan nefti. Bakı: 1999.
2. Книга законов султана Селима I. Публикация текста пер. терминологии, коммент. и предислов. А.С.Тверитиновой. М.: 1969.
3. Topkapı sarayı müzesi Osmanlı Saray arşivi kataloqu. Fermanlar. Fasikül NOEİ-12476, Hazırlayanlar İ.H.Uzunçarşılı, Y.K.Baykara, Ülkü Altındağ. Ankara: 1981.
4. Osmanlı mühaideleri ve kapitulyasyonlar 1300-1920 ve Lozan müahidesi. Hazırlayan Reşat Ekrem. İstanbul: 1934.
5. Danişmend İ.H. İzahlı Osmanlı tarihi kronolojisi. 3 ciltde, I c., İstanbul: 1947; Atan T. Türk gümrük tarihi (başlanğıcdan Osmanlı devletine kadar). 2 ciltde, I c., Ankara: 1990; Gökbilgin M.T. XVI yüzyıl başlarında Trabzon livası ve Doqu Karadeniz bölgesi. TTK Belleten, 1962, cilt XXVI, sayı 102; İnalcıq H. Osmanlı-rus rekabetinin mensei. TTK Belleten, 1948, cilt XII, sayı 46; İnalcıq H. Türkiyenin iktisadi veziyyeti.TTK Belleten, 1951, cilt XV; İnalcıq H. XV asır Türkiye iktisadi ve ictimai tarihi kaynakları. JÜJFM, 1953-54, cilt 15, № 1-4; İnalcıq H. Osmanlı imperatorluğunun kuruluş ve inkişafı devrinde türkiyenin iktisadi veziyyeti.TTK Belleten, 1951, cilt XV, sayı 60; İnalcıq H. Bursa. XV asır ticaret ve sanaye tarihine dair vesikalar. TTK Belleten, 1960, cilt XXIV, sayı 93; İnalcıq H. Fatih Sultan Mehmedin fermanları. Bursa ser'iyye sicillerinde. TTK Belleten, 1974, cilt XI, sayı 44; İnalcıq H. Mehmed II. İslam ansiklopedisi, VII c., İstanbul: 1988; İnalciq H.Osmanlılar. İslam ansiklopedisi, XI c., İstanbul: 1988
6. İnalcıq H. Bursa. XV asır ticaret ve sanaye tarihine dair vesikalar. TTK Belleten, 1960, cilt XXIV, sayı 93.
7. İnalcıq H. XV asır Türkiye iktisadi ve ictimai tarihi kaynakları. JÜJFM, 1953-54, cilt 15, № 1-4.
8. Sahillioğlu H. XV yüzyıl sonunda Hindistanda Osmanlı tacirleri. Osmanlı, 3 ciltde, III c. Ankara: 1999.
9. Şen Ö. Trabzon tarihi. Trabzon, 1998; Gökbilgin M.T. XVI yüzyıl başlarında Trabzon livası ve Doğu Karadeniz bölgesi. TTK Belleten, 1962, cilt XXVI, sayı 102; Ünal M.A. XVI və XVII yüzyıllarda Karadeniz-Basra körfezi ticareti. I Tarih boyunca Karadeniz konqresi Bildirileri 13-17 Ekim, 1986; Ünal M.A. XVI və XVII yüzyıllarda Karadeniz-Basra körfezi ticareti.

I Tarih boyunca Karadeniz konqresi Bildirileri 13-17 Ekim, 1986.
10. Berkes N. 100 soruda Türкiye iktisadi tarihi. İstanbul, 1970; Tansel S. Fatih Sultan Mehmedin Osmanlı kaynaklarına göre siyasi ve askeri fealiyyeti. Ankara: 1953; Yügel Y.Osmanlı imperatorluğunda Desantralizasyona (Acemi-merkesiyet) dair genel gözlemeler. TTK Belleten, 1974, 38 c., №152; Göyünc N. İstanbul fethinin Orta Doqu ticaretine tesirleri. I Tarih boyunca Karadeniz konqresi Bildirileri. İstanbul: 13-17 Ekim, 1986.
11. Atan T. Türk gümrük tarihi (başlanğıcdan Osmanlı devletine kadar). 2 ciltde, I c., Anкara: 1990.
12. Османская империя. Система государственного управления социальные и этнорелигиозные проблемы. М.: 1986.
13. Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Баку: 1991.
14. Kurat A.N.Rusiya tarihi (başlanğıctan 1917-ye kadar). Ankara, 1948; Kurat A.N. Türkiye ve İdil boyu. Ankara: 1966.
15. Karpat K. Fatih devri. İslam ansiklopedisi, II c., İstanbul: 1988.

## МЕЖДУНАРОДНАЯ ТОРГОВЛЯ АЗЕРБАЙДЖАНА ВО II ПОЛОВИНЕ XV - И В XVI ВЕКЕ В СОВРЕМЕННОЙ ТУРЕЦКОЙ ИСТОРИОГРАФИИ

А.С.ДЖАВАДОВА

### РЕЗЮМЕ

Данная статья посвящена изучению фактов и сведений, находящихся в работах турецких исследователей, посвященных проблеме международной торговли Азербайджана во II половине XV-начале XVI века. Изучение работ современных турецких исследователей, основанных на имеющихся в различных Государственных Архивах Турции источниках, еще раз подтверждает особую роль азербайджанского шелка-сырца в международных торговых отношениях.

## INTERNATIONAL TRADE OF AZERBAIJAN IN II HALF XV - AND IN XVI CENTURY IN A MODERN TURKISH HISTORIOGRAPHY

A.C.DCHAVADOVA

### SUMMARY

Given clauses is devoted to studying of the facts and the data which are taking place in works of turkish researchers, devoted to a problem international trade of Azerbaijan in II half XV-beginning of XVI century. Studying of works of the modern Turkish researchers based on available in various State Archives of Turkey sources, once again confirms a special role of the Azerbaijan silk in the international trade relations.